

Ata öz yeni doğulan qızını diri-diri basdırıb. Tükürpədici hadisə Kamboçada yaşanıb. Kişi yeni doğulan və hələ adı belə qoyulmayan qızını xəstəxanadan qaçıraraq diri-diri dəfn edib.

Polisin məlumatına görə, uşaq dövşan dodaq xəstəliyindən əziyyət çəkib. Məhz buna görə atası Konq Sok onu istəməyib. O, uşağı qaçıraraq xəstəxananın yanındakı məbədin həyətinda basdırıb.

Lakin buddist rahiblər hadisəni görüblər. Onlar dərhal uşağı torpağın altından çıxarıblar. Körpə yenidən xəstəxanaya çatdırılıb. Onun həyati təhlükəsi olmadığı bildirilir.